

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 208 (23.850)

*9 noyabr 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərinə səfərə gəliblər. Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoyublar.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olublar.

Sonra dövlətimizin başçısı və birinci xanım VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşüb, söhbət edib və Cıdır düzündə olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkiblər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvanda Zəfər Günündə Kəngərli Rayon Bayraq Meydanı istifadəyə verilmişdir

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir".*** Bu gün ölkə Prezidentinin rəhbərliyi ilə dahi şəxsiyyətin ideyalarının həyata keçirilməsi, lider-xalq birliyinin nəticəsində yenilməz Azərbaycan Ordusu 44 gün ərzində işğal olunmuş torpaqlarımızı azad etdi. Dövlət-xalq-ordu birliyi, xalqın liderinə olan inamı tarixi Qələbəni təmin etdi. Ərazi bütövlüyümüz bərpa olundu. Üçrəngli bayrağımız işğaldan azad edilən ərazilərdə dalğalanır.

Bu gün ölkəmizdə olduğu kimi, muxtar respublikanın digər guşələrində də yaradılan Bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisi, qələbənin simvoludur.

Noyabrın 8-də – Zəfər Günündə Kəngərli Rayon Bayraq Meydanı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad edilməlidir, müstəqil dövlət kimi Azərbaycan bütün ərazisinin sahibi olmalıdır, öz sərhədlərinə tam nəzarət etmək hüququna nail olmalıdır".*** Ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz İkinci Qarabağ müharibəsində torpaqlarımızı işğaldan azad etmiş, Azərbaycan düşmən üzərində tarixi Qələbə qazanmışdır. Əgər 1993-cü ildə ümummilli liderimiz Azərbaycanı parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən xilas edərək Milli Qurtuluşa qovuşdurmuşsa, bu yolu uğurla davam etdirən ölkə Prezidentinin rəhbərliyi ilə 2020-ci ildə torpaqlarımız işğaldan azad olunmuş, ərazi bütövlüyümüz tam təmin edilmişdir.





"Şanlı tariximizə çevrilən Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini, yenilməzliyini və birliyini bir daha dünyaya nümayiş etdirdi", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən 8 noyabr ölkəmizdə Zəfər Günüdür. Dövlət başçısının Sərəncamında qeyd olunduğu kimi, ***Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu.***

Ali Məclisin Sədri Zəfər bayramı münasibətilə şəhid ailələrini, müharibə iştirakçılarını və veteranları, Naxçıvandakı ordu, birləşmə və hissələrin şəxsi heyətlərini, muxtar respublika əhalisini təbrik etmiş, Bayraq Meydanının qurulmasında əməyi olanlara, iştirakçılara təşəkkürünü bildirmişdir.

"Üçrəngli bayrağımızı şəhidlərimizin əziz xatirəsinə və Zəfər Gününün şərəfinə qaldırırıq", – deyən Ali Məclisin Sədri qurğunu işə salmış, üçrəngli dövlət bayrağımız əbədi yüksəkliyə ucalmışdır.

Yeni Azərbaycan Partiyası Kəngərli rayon təşkilatının sədri, Ali Məclisin deputatı Sevda Quluyeva minnətdarlıq edərək demişdir ki, muxtar respublikada uğurla həyata keçirilən quruculuq işləri bütün bölgələrimiz kimi, yeni yaradılmış Kəngərli rayonunu da abadlaşdırıb. Rayonun bütün yaşayış məntəqələrində kompleks quruculuq işləri görülmüşdür. Muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən bu inkişafın təməlində ulu öndər Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, qətiyyətli mövqe, düzgün idarəetmə dayanır. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbənin ildönümündə Bayraq Meydanının açılışı rayonumuza ən böyük töhfə, dövlət atributlarımıza göstərilən diqqət və ehtiramın yüksək ifadəsi olmaqla, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində də müstəsna əhəmiyyətə malikdir. Sevda Quluyeva rayon ictimaiyyəti adından Zəfər Günü münasibətilə təbriklərini çatdırmışdır.



Bayraq Meydanı ilə tanışlıq zamanı məlumat verilmişdir ki, 2,5 hektar ərazini əhatə edən Bayraq Meydanının tikintisinə bu ilin iyul ayında başlanılmışdır. Bayraq dirəyinin hündürlüyü postamentlə birlikdə 40, meydanda dalğalanan bayrağın uzunluğu 16, eni isə 8 metrdir. Milli ornamentlərin – buta, xarıbülbülün əks olunduğu memarlıq elementləri ilə dizayn edilmiş Bayraq Meydanında müasir işıqlandırma sistemləri quraşdırılmış, gülkarlıqlar salınmışdır. Həmçinin meydanın ətrafında da geniş abadlıq işləri görülmüş, suvarma sistemi qurulmuş, avtomobil dayanacağı yaradılmışdır.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov göstərilən diqqət və qayğıya görə rayon ictimaiyyəti adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri Bayraq Meydanında vətənpərvərliklə bağlı tədbirlərin keçirilməsi, ərazidə yaşıllıqların artırılması və qurulanların qorunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda Zəfər Günü münasibətilə ağacəkmə keçirilib





44 günlük Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi.Tarixi zəfər qazanıldı, ərazi bütövlüyümüz bərpa olundu. Ölkə Prezidentinin dediyi kimi: ***“Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı... Ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq”.***

Torpağa məhəbbət, vətənpərvərlik isə onu qorumaqla yanaşı, həm də əkmək, zəhmətə qatlaşıb bol məhsul yetişdirməklə, bağlar, yaşıllıqlar salmaqla mümkün olur.

Noyabrın 6-da muxtar respublikada Zəfər Günü ilə əlaqədar ağacəkmə kampaniyası keçirilmiş, meyvə bağları və yaşıllıqlar salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarındakı 4,2 hektar ərazidə keçirilən ağacəkmədə iştirak etmişlər. Burada 2,2 hektar sahədə meyvə bağı salınmış, ərazidəki 2 hektar meyvə bağında isə bərpa əkini aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ağacəkmədə iştirak etmişdir.

Bildirilmişdir ki, cari ilin payızında muxtar respublikada 142 hektar sahədə yaşıllaşdırma tədbirləri aparılacaqdır. Yeni meyvə bağlarının salınmasında cəviz, badam, ərik, alma və digər tinglərdən istifadə olunacaqdır.

Ali Məclisin Sədri meyvə tingləri əkmiş, muxtar respublikada ağac əkinlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikada Zəfər Günü münasibətilə keçirilən ağacəkmədə 20 mindən artıq sakin iştirak etmiş, 7 mindən artıq meyvə və meşə tingləri əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Zəfər Günü ilə bağlı tədbirlər olub



8 Noyabr – Zəfər Günü ilə əlaqədar Naxçıvan Qarnizonu Hərbi Orkestrinin ifasında konsert proqramı olub. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında təşkil edilən konsertdə hərbi marşlar və Zəfər Gününə həsr olunan, vətənpərvərlik mövzusunda bir-birindən maraqlı musiqi nömrələri, mahnılar səsləndirilib. Şəhər sakinlərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konsert tədbir iştirakçılarında əsl bayram əhval-ruhiyyəsi yaradıb. Orkestrin ifası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Noyabrın 8-də Naxçıvan şəhərində Zəfər yürüşü keçirilib. Zəfər Günü münasibətilə keçirilən yürüşdə yeniyetmə və gənclərlə yanaşı, çoxsaylı şəhər sakinləri də iştirak ediblər. Yürüş iştirakçıları Türkiyə və Azərbaycan bayraqlarını dalğalandırıb, “Bir millət, iki dövlət”, “Qarabağ Azərbaycandır!”, “Əziz Şuşa, sən azadsan!” kimi şüarlar



səsləndiriblər. Naxçıvan şəhərindəki Bayraq Meydanı Kompleksini, Şəhidlər xiyabanını ziyarət edən iştirakçılar Vətən uğrunda canlarından keçən qəhrəmanlarımızı hörmət və ehtiramla yad ediblər.

44 günlük müharibənin qələbə ildönümü bayraqlarla bəzədilmiş avtomobillərin hərəkəti ilə də müşayiət olunub.




Naxçıvan Dövlət Universiteti Yeni Azərbaycan Partiyası ərazi ilk partiya təşkilatının təşəbbüsü, Naxçıvan Dövlət Universiteti tələbə təşkilatlarının təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş “Zəfər” flaşmobu təşkil olunub.

1300-ə yaxın tələbənin iştirak etdiyi flaşmobda Naxçıvan Dövlət Universitetinin ərazisində “8 Noyabr – Zəfər Günü”, “44 gün” yazıları və ölkəmizin xəritəsi təsvir edilib.

* * *

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin və Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin iştirakı ilə ilk dəfə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Simfonik Orkestrin Zəfər Gününə həsr olunmuş vətənpərvərlik mahnılarından ibarət konsert proqramı təşkil edilib. Simfonik Orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti, siyasi səriştəsi, ordumuzun döyüş əzmi, qüdrəti və xalqımızın sarsılmaz iradəsi sayəsində qazandığımız qələbədən bir il ötür. Rektor əsası ulu öndər tərəfindən qoyulan müstəqilliyimizin dönməzliyi və sarsılmazlığı uğrunda apardığımız hər bir mübarizədə bütün gənclərə mətin və mübariz olmağı, bundan sonra zəfəri qeyd edəcəyimiz növbəti illərdə şəhidlərimizi daim xatırlamağı, onların müqəddəs ruhuna hər zaman hörmət etməyi tövsiyə edib.

Sonra ali təhsil ocağının İncəsənət fakültəsinin və Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrindən ibarət simfonik orkestrinin təqdimatında vətənpərvərlik mahnıları ifa edilib.

Konsertdə Üzeyir Hacıbəyov və Oqtay Zülfüqarovun “Uvertüra”ları, Müslüm Maqo-



mayevin “Azərbaycan”, “Odlar ölkəsi”, “Aslan şahın ariyası”, Fikrət Əmirovun “Azərbaycan elləri”, Bəhram Nəsibovun “Qarabağ”, Rauf Məmmədovun “Yaşa, mənim xalqım”, Cavanşir Quliyevin “Azərbaycan-Türkiyə”, sözləri və musiqisi universitetin Fortepiano kafedrasının müəllimi Nazilə Qardaşbəyovaya məxsus “Musiqi xəzinəsi Azərbaycanım”, konservatoriya və Musiqi Kollecinin birləşmiş xor kollektivlərinin ifasında Qara Qarayevin “Xoşbəxtlik kantatası” və digər mahnıları konsertə xoş ovqat bəxş edib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Cabir Hacıyevin xoreoqrafı olduğu Naxçıvan Musiqi Kollecinin rəqs qrupunun ifasında Eldar Mansurovun “Odlar yurdu” rəqsi tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, konsertin dirijoru 140 nəfərdən ibarət orkestrə rəhbərlik edən Azərbaycan Respublikasının Xalq artisti, universitetin professoru Çingiz Axundov, bədii rəhbəri ali təhsil ocağının müəllimi Ülvi Əhmədov olub.

* * *

*Noyabrın 6-da Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 44 günlük şanlı Vətən müharibəsində əldə etdiyimiz böyük qələbəyə həsr olunmuş “Zəfər yolumuz” adlı tədbir təşkil edilib. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və müharibədə şəhadət zirvəsinə yüksəlmiş qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Tədbirdə mayor Yalçın Ağayev, polkovnik Fariz Sərxanov, Vətən müharibəsi iştirakçıları, qazilər – leytenant Rauf Əbdülrəhimov və Mirməhəmməd Seyidov çıxış ediblər.

Hərbi hissələrin bədii özfəaliyyət kollektivlərinin ədəbi-bədii kompozisiya ilə çıxış etdiyi tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri tərəfindən vətənpərvər mövzuda şeirlər qiraət olunub, mahnılar ifa edilib, çıxışlar olub.

Tədbir Naxçıvan Qarnizonu Hərbi Orkestrinin vətənpərvərlik mövzusunda səsləndirdiyi marş ilə başa çatıb.






*Əlahiddə Ümumqoşun Orduda 8 Noyabr Zəfər Günü təntənəli şəkildə qeyd edilib, xidmətdə və döyüş tapşırıqlarının icrasında fərqlənən hərbi qulluqçular mükafatlandırılıb.*

Silsilə tədbirlərdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Tədbirlərdə 8 Noyabr – Zəfər Günü münasibətilə şəxsi heyətə təbriklər çatdırılıb, 44 günlük müharibə ilə qazanılan Qələbədən danışılıb. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində 2016-cı ilin Aprel və 2018-ci ilin Günnüt zəfərlərini qazandıq, 2020-ci ildə 44 günlük Vətən müharibəsini şanlı qələbə ilə başa vurduq. Naxçıvan Muxtar Respublikasında Ali Məclis Sədrinin qayğısı ilə yeni hərbi hissələrin yaradılması və mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordunun qazanılan şanlı qələbədə xüsusi payı vardır.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularına müxtəlif orden və medallar, vaxtından əvvəl və növbəti hərbi rütbələr, fəxri fərman, pul mükafatı və qiymətli hədiyyələr təqdim edilib.

Bayram tədbirləri Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində, Təlim-Tədris Mərkəzlərində təşkil olunan konsert proqramları ilə davam edib.

**Xəbərlər şöbəsi**

9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür

# Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi:




***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli Sərəncamı ilə hər il 9 noyabr tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edir.***

Xalqımız hər zaman qədim tarixi, zəngin mədəniyyəti, bütün dünyaya nümunə sayıla biləcək milli və mənəvi dəyərləri ilə qürur duymuşdur. Dövlət rəmzlərimiz də mövcudluq nişanəsi kimi dünyaya xalqımızın inkişaf etdiyini, müstəqil ölkəyə sahib olduğunu bəyan edir. Dövlət atributlarımız dövlətçiliyimizin keçdiyi tarixi inkişaf yolunu əks etdirir, xalqımızın malik olduğu qüdrəti göstərir. Ulularımızdan bizə qalan tarixi irs isə bu gün də müasir Azərbaycanın inkişafında mühüm rol oynayır.

Dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar açır. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımızı həm də milli qürurumuzdur. Çünki milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalanan torpağın qədimliyini göstərir.

Azərbaycan xalqı ötən əsrdə iki dəfə – 1918-ci il mayın 28-də və 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə etmişdir. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamış və müstəqil dövlətə xas olan atributlar təsis edilmişdir. Üzərində ağ aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Azərbaycan Müvəqqəti Hökumətinin 1918-ci il 24 iyun tarixli Qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağı kimi qəbul olunmuşdur. 1918-ci il noyabrın 9-da isə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Bakıda keçirilən iclasında Fətəli xan Xoyski milli bayraq haqqında məruzə ilə çıxış etmişdir. Müzakirələrdən sonra yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq Dövlət Bayrağı kimi qəbul edilmişdir.

Üçrəngli bayrağımız ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında ümummilli liderimizin təşəbbüsü ilə qaldırılmışdır. Həmin sessiya Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə edilməsi, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbulu ilə əlamətdar olmuşdur. Məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edilmişdir. “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” Qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin öz əli ilə yazıb imzaladığı Ali Məclisin qərarında deyilirdi:

*“Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:*

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il fevral ayının 5-də üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev hər zaman dövlət atributlarına xüsusi diqqətlə yanaşmışdır. ***“Gərək hər bir evdə Azərbaycan bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu kimi təsdiq olunmuş, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında normativ aktlar qəbul edilmişdir. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir.

Ölkə başçısı cənab İlham Əliyev demişdir: ***“Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda Dövlət Bayrağı kimi təsdiq edildi... Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir”.***

Azərbaycanın müstəqilliyinin müqəddəs simvolu olan Dövlət Bayrağına hörmət və ehtiram, üçrəngli bayrağımıza olan məhəbbət və vətəndaş sevgisi hər bir azərbaycanlının həyat idealına, Vətən qayğısına, millət duyğusuna çevrilmişdir. Ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir. Ölkə Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında” Sərəncam imzalamış, həmin ilin dekabrında Dövlət Bayrağı Meydanının təməli qoyulmuş, 2010-cu il sentyabrın 1-də isə Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycanın digər guşələrində olduğu kimi, onun Naxçıvan Muxtar Respublikasında da yaradılan bayraq meydanları dövlət atributlarımıza olan böyük sevginin və yüksək hörmətin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir. Açılış mərasimində çıxış edən Ali Məclisin Sədri demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır”.***

Naxçıvan şəhərindəki Bayraq Meydanında unikal quruluşa malik Bayraq Muzeyi yaradılmışdır. Dövlət Bayrağı Muzeyi Naxçıvan şəhərinin ən hündür ərazisində yerləşir. Bayraq dirəyinin ətrafında yaradılmış muzey səkkizguşəlidir. Meydanda dalğalanan Dövlət Bayrağının uzunluğu 20 metr, eni 10 metr, bayraq dirəyinin hündürlüyü isə 57 metrdir. Muzeydə nümayiş olunan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər, tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları dövlətçilik tariximizi, Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə geniş imkanlar yaradır, gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işində mühüm rol oynayır.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyində müxtəlif tədbirlərin keçirilməsi ənənə halını almışdır. Muxtar respublikanın nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarının kollektivləri muzeyi ziyarət edir, burada onlara dövlət və döyüş bayraqlarımız haqqında ətraflı məlumatlar verilir. Bayrağımıza ehtiram hissini gücləndirmək məqsədilə dövlət qulluğuna yeni təyin olunmuş gənclərin andiçmə mərasimlərinin burada keçirilməsi onların bayrağımız haqqında daha geniş məlumata malik olmalarına şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Hər bir dövləti digərlərindən fərqləndirən rəmzlər – bayraq, gerb, orden, pul nişanı və sair atributlar mövcuddur. Bunların içərisində bayraq mühüm yer tutur. Çünki bayraq dövlətlərin müstəqillik və suverenlik rəmzidir”.***

*Bu gün üçrəngli bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır. Ötən il müzəffər Ordumuzun cəsarəti, peşəkarlığı, Ali Baş Komandanımızın qətiyyətli iradəsi sayəsində ərazi bütövlüyümüz təmin olundu, haqq-ədalət öz yerini tapdı, Tarixi Qələbə qazandıq. İndi əzəmətli Azərbaycan bayrağı əzəli, qədim torpaqlarımızda qürurla dalğalanmaqdadır. Vətənimizin bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin, qəhrəman oğullarımızın sayəsində ucalan zəfər bayrağımız əbədi dalğalanacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq”.***

**“Şərq qapısı”**

## Haçadağa zəfər yürüşü təşkil edilib



11 nəfərlik alpinist qrupu Azərbaycan Ordusunun əldə etdiyi şanlı qələbənin ildönümü münasibətilə Culfa rayonu ərazisindəki hündürlüyü 2 min 415 metr olan Haçadağa yürüş edib. Yürüş Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən birgə təşkil edilib. Federasiyanın idmançıları da qardaş ölkə alpinistlərinə qoşularaq zirvəyə dırmanıblar.

Yürüşə Culfa rayonunun Gal kəndindən başlanılıb. Dağın zirvəsinə çatan yürüş iştirakçıları 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəman hərbçilərimizin xatirəsini yad edib, posterlər açıb, sonra iki ölkənin dövlət bayraqlarını dalğalandırıblar.

Yürüşdən sonra alpinistlərə fəxri fərman və xatirə plaketi verilib.

## 8 Noyabr – Zəfər Günü ilə bağlı rəsm müsabiqəsi



8 Noyabr – Zəfər Gününə həsr olunmuş rəsm müsabiqəsi keçirilib.

Rəsm müsabiqəsində muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin 20 dərnək üzvü iştirak edib. Müsabiqəyə 2 saat vaxt ayrılıb. Bu vaxt ərzində şagirdlər təsviri sənət janrına müraciət etməklə müsabiqənin mövzusuna uyğun rəsmlər çəkiblər. Mövzu üzrə rəsmlər A3 ölçüdə kağız üzərində sərbəst texnika ilə (karandaş, flomaster, diyircəkli və rəngli qələm, pastel, quaş, sulu boya və sair) işlənib. Seçim zamanı mövzunu əhatə edən rəsmlər nəzərə alınmaqla düzgün kompozisiya, rəng seçimi, ən yaxşı işıq və kölgə həlli əsas götürülüb. Yarışın nəticəsinə görə I yerə 1, II yerə 2, III yerə 3 və həvəsləndirici yerə 3 şagird layiq görülmüşdür.

**Xəbərlər şöbəsi**

## Təlim başa çatıb

*“Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı”na əsasən birləşmələrlə keçirilən komanda-qərargah təlimi başa çatıb.*

Təlimin planına əsasən praktik fəaliyyətlərə cəlb edilən bölmələr ərazidə müxtəlif təlim-döyüş tapşırıqlarını icra ediblər.

Komanda-qərargah təliminin sonuncu mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində birləşmə və hissələrin fəaliyyəti, qərarların və hesablamaların reallığı kompüterlər üzərində keçirilən təlimdə qiymətləndirilib.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılan zaman ayrı-ayrı tapşırıq yerinə yetirən taktiki və xüsusi qrupların fəaliyyətinin uzlaşmasına nail olunduğu bildirilib. Döyüşü idarəetmə mərkəzlərində qoşunların fəaliyyətinin əlaqələndirilməsi üzrə yaradılmış işçi qruplarının, təlimə cəlb olunmuş birləşmə komandirlərinin və qərargahların fəaliyyətləri qiymətləndirilərək aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində tapşırıqlar verilib.

**Nəriman NƏCƏFOV**

# Zəfərimiz ən dəyərli əmanətimizdir!!!

Mən Vətən sevgisini ilk nənəmdən öyrənmişəm...

3 yaşım var idi, Səməd Vurğunun "Azərbaycan" şeirini nənəm cümlə-cümlə deyərək öyrətmişdi mənə. "Vətən" və "Ana" kəlmələrinin müqəddəsliyini, bu sevgilərin heç nə ilə əvəz olunmayacağını ilk dəfə özümü dərk edəndən nənəm aşılayırdı:




*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

misralarını Vətən eşqiylə dolub-daşan körpə qəlibimə yeridirdi. Mənə mütləq oxu, savadlı qızım ol deyirdi... Bəli, Azərbaycanı da bu gün vətənpərvər, savadlı, ziyalı insanlar qorudu, yenidən var etdi...

Uşaqlığımdan çox şey xatırlaya bilmirəm, amma bəzi nüansları əsla unutmaram. 5 yaşında olduğum zamanlar onda elektriklər iki saat fasilə ilə verilirdi. Çıraq işıqlı bir axşam "Fatihə" surəsini də eyni qaydada nənəm öyrətdi mənə... Çətinlik çəkəndə bu surəni oxu, yadında saxla, həm də peyğəmbərlərimiz, onlara yoldaş olan şəhidlərimiz üçün oxu! Arxasınca isə oxuduğun dualar bu çıraq işığının qaranlıq otağı aydınlatdığı kimi bütün dünyanı aydınladacaq deyərdi. Müharibə dövrü ordumuza kömək üçün oxudum, bu gün isə "Fatihə" surəsini oxuyaraq demək istəyirəm ki, ey qəhrəman şəhidlərimiz, ruhunuz şad olsun, Qarabağımız azaddır, sizin qanınız, canınız bahasına...Siz hər zaman nurlar içində uyuyun, bizim görünməyən qəhrəmanlarımız...

Ailəmdə aşılanan Vətən sevgisi oxuduğum məktəbdə və təhsil aldığım universitetdə daha kamil şəklini alıb.

Təhsil aldığım Dırnıs kənd tam orta məktəbində vətənpərvərlik hissləri ən yüksək səviyyədə şagirdlərə aşılanırdı. Nənəm kimi danışan, bizə yol göstərən onlarla müəllimim oldu. Oxuduğum məktəbin 6 şagirdi Dırnıs Şəhidlər xiyabanında uyuyan, 1918-ci ildə erməni soyqırımları zamanı Azərbaycana köməyə gələn qardaş Türkiyə ordusunun komutanı Həsən Bəşir Əli oğlu ilə bir yerdə uyuyur. Onlardan 4-ü Birinci Qarabağ müharibəsi zamanı şəhidlik zirvəsini fəth edib. Bu kəndin neçə qəhrəman oğlu Qarabağ döyüşlərində iştirak edib qazi olub. Onlardan biri də mənim atam idi...

Qarabağ Azərbaycandır, Vətən sevgisidir, o nəsillərdən-nəsillərə hədiyyə, əmanətdir. Bu müqəddəs sevgini qorumaq bizim ən ali məqsədimizdir. 27 il qəlbinə daş basıb bu sevginin, bu ərməğanın düşmən zəncirlərindən sülh yolu ilə azad olunmasını gözləyən xalqımın igid oğulları 10 noyabrda döyüş meydanında qanları ilə qələbə marşı çaldılar. Qarabağ torpağını, Cıdır düzünü, İsa bulağını, xarıbülbülü sevindirdilər. Qarabağı 44 günə canları, qanları, analarının, övladlarının, doğmalarının göz yaşları bahasına öz gerçək sahibinə qaytarıb, erməni işğalçılığına son qoydular. Minlərlə qəhrəman bu yolda öz şirin canını qurban verdi, bir çoxları isə öz sağlamlığını... Vətən üçün... Can Azərbaycan deyəndə Vətənin yaraları sızlamasın, yarımçıq qalmasın deyə, – öz həyatlarını yarımçıq qoymağa razı oldular, gələcək üçün olan bütün ümidlərini, arzularını yurdumuzun bütöv olması üçün fəda etdilər. Məncə, xalqımın Vətən sevgisi genetikdir. Bizim damarlarımızda qanla bərabər, bu sevgi axır, o qan ki şəhidimiz can verəndə ulu torpağımıza düşüb onu bəsləyir, qoruyur, yaralarına məlhəm olub onu var edir...

Öz qanı ilə torpağını bəsləyən Vətənini bütöv edən əbədiyaşar igidlərimizdən, Dırnıs kəndinin Vətən müharibəsində iştirak edən 50-yə yaxın hərbi qulluqçusundan biri də Dırnıs kənd tam orta məktəbinin məzunlarından kapitan Nəcəfov Vüqar Aydın oğlu idi. Vüqar 1988-ci ildə Ordubad rayonunun Dırnıs kəndində anadan olub. Ailədə 2 bacı bir qardaş olublar. Ailəli idi. 2 övladı ondan Vətənə əmanət qaldı... 2016-cı il Aprel döyüşlərində, eləcə də Lələtəpə uğrunda döyüşlərdə iştirak edib. İkinci Qarabağ müharibəsi başladığı andan döyüş bölgəsində olub, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. 2 oktyabr döyüşləri zamanı kapitan Vüqar Nəcəfov yaralı əsgərlərini düşmənin atəş nöqtələri altından çıxarmaq istəyərkən artilleriya atəşinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlmişdir. Vətən sevgisi ailədən, məktəbdən, universitetdən, var olduğun cəmiyyətdən görüb-götürdüyün dəyərdir. Ailəsində, oxuduğu məktəbdə, Hərbi Liseydə, akademiyada hər zaman vətənpərvər duyğularla əhatə olunan Vüqarın rəşadətli, vüqarlı həyat yolu Qarabağla başladı, Qarabağla bitdi... Şəhidlər ölmür, onlar hər zaman yaşayacaqlar... Vüqar da daim qəhrəman komandir olaraq yaddaşlarda qalacaq, övladlarının xatirəsində sızlayan acı, qürur dolu hisslərlə var olacaq...

Şəhadətindən sonra cənab Prezident tərəfindən "Vətən uğrunda" medalına, həmçinin Xocavəndin, Füzulinin, Cəbrayılın azad olunmasına görə medallara layiq görülüb...

Bakalavr təhsilimi aldığım, hazırda magistratura pilləsində təhsilimə davam etdiyim Naxçıvan Dövlət Universitetində də 6 il ərzində Vətən, dövlət, xalq sevgisi duydum mən. Bunun səbəbidir ki, Vətən müharibəmiz başlayan zaman tələbələr cəbhəyə yollanmaq üçün könüllü müraciət edərək, düşməni məhv etməyə hazır olduqlarını deyirdilər. Universitetimizin bir çox tələbələri qazi oldu, 3 tələbəsi isə şəhidlik məqamına ucaldı...

Onlardan Yüksəl Əlizadə 1996-cı il iyunun 5-də sabiq prokurorluq əməkdaşı mərhum İlqar Əliyevin ailəsində dünyaya göz açmışdır. Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə I kurs tələbəsi olan Yüksəl 2017-ci ildən Gəncə Şəhər Prokurorluğunda böyük mütəxəssis vəzifəsində çalışmışdır. 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı könüllü şəkildə səfərbərlik xidmətinə müraciət edərək orduya yazılmış, sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinə yollanmışdır. Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Yüksəl Əlizadə noyabrın 9-da Xocavənd döyüşləri zamanı 19 güllə yarası alaraq qəhrəmancasına şəhid olmuşdur.

Şəhid tələbələrimizdən Kərimli Orxan Akif oğlu 6 oktyabr 2001-ci ildə Göyçay rayonunda anadan olmuşdur. 2018-ci ildə Göyçay rayon 7 nömrəli tam orta məktəbi bitirmiş və həmin ildə 512 balla Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının qiyabi şöbəsinə qəbul olmuşdur. 2019-cu il oktyabrın 9-da isə hərbi xidmətə yollanmışdır. Orxan Daşkəsən rayonunun mənfur düşmənlər tərəfindən qəddarcasına atəşə tutulması zamanı şəhid olmuşdur. Universitetdə təhsil aldığı illər ərzində hər zaman nümunəvi davranışı, vətənpərvərliyi və intellekti ilə fərqlənən Orxan Göyçay rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

Naxçıvan Dövlət Universitetinin 3-cü şəhid tələbəsi isə Osmanlı Teymur Saday oğludur. Osmanlı Teymur 1995-ci il mayın 31-də İsmayıllı rayonunun Cülyan kəndində anadan olub. Orta təhsilini İsmayıllı rayon 1 nömrəli tam orta məktəbdə aldıqdan sonra, ali təhsilini Azərbaycan Dillər Universitetinin Fransız dili-tərcüməçilik bölməsində davam etdirib. Hərbi səfərbərliyə yollanmazdan əvvəl həm çalışır, həm də Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasında ikinci təhsilini davam etdirirdi. Zəfər müharibəsinə könüllü gedən Teymur oktyabr ayının 3-də Vətən müharibəsinin Suqovuşan cəbhəsində qəhrəmancasına şəhid olmuşdur...

Səngərlərdə əsgəri üçün əsl vətənpərvərlik örnəyi olan Vətən müharibəsindəki qisas hissini alovlandıran, Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun "Mən səngər generalı yetişdirmişəm", – deyən anası Səmayə nənə ilə görüşümüzdə, Fəxri xiyabanda generalımızın ziyarətindəki hisslərimi izah etməyə cümlələr kifayət etməz. Onun haqqında nə desək, nə yazsaq, mübarizliyini, qəhrəmanlığını ifadə etməyə yetməyəcək... Əlimizdən gələn yalnız onların əziz xatirəsini uca tutmaqdır, bir ömür ona və onun əsgərlərinə minnətdarıq, borcluyuq...

Xalqımızın mübarizliyi, Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuzun rəşadəti Vətənimizi hər zaman var edəcək... Qarabağ üçün minlərlə şəhidimiz, qazimiz oldu, çox ağladıq, amma yaralarımız sızladıqca daha da gücləndik, dəmir yumruq olub, düşmənin başını əzib onu kapitulyasiya aktı imzalamağa məcbur etdik. Bundan sonra da hər zaman düşməni məhv etməyə hazır olub, bu zəfəri bizə bəxş edən şəhidlərimizin əziz xatirəsini uca tutacağıq!

Vətən sevgisinin, şəhidləri xatırlamağın, onlardan danışmağın saatı, günü, yeri olmur... Onlar bizim hər zaman qəlbimizdədir. Şəhidlərimizin uca ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa, cansağlığı diləyirik. Zəfərimiz ən dəyərli əmanətimizdir!

**Təbrizə BAĞIROVA**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə II kurs magistr, Universitet Tələbə Elmi Cəmiyyətinin sədri***

# Sən heç solma, xarıbülbül! *(Esse)*



Gurultu səsinə oyandı xarıbülbül, yuxulu-yuxulu boylandı ətrafa. Bu səsi çox tez- tez eşidərdi, hər dəfə eşidəndə "bəlkə qayıtdılar..." deyə bir fikir gəlirdi ağlına, amma tez özündən uzaqlaşdırırdı "bəlkə..." fikrini. Yorulmuşdu yol gözləməkdən, yorulmuşdu ümid etməkdən, həm də çox yorulmuşdu...

30 il idi... 30 il idi ki, gözü yollarda qalmışdı xarıbülbülün, 30 il idi ki, səbirlə gözləyirdi, bəzən ümidi tamam tükənirdi, daha geri dönməyəcəklər, – deyə düşünürdü, amma hər gurultu səsi eşidəndə "bəlkə qayıtdılar...", – deyə yenə boylanırdı ətrafa, ümidi gah artır, gah azalır, gah da yox olurdu.

Bu dəfə uzun çəkdi gurultu səsi, get-gedə də yaxınlaşırdı... Səs-küy çoxalır, həyəcanı artırdı xarıbülbülün. Bir an dondu qaldı xarıbülbül...Aman Allah, bu səslər...

Bu səs onun igidlərinin səsi idi, bu səs Vətən səsi idi, necə doğma idi bu səslər, necə əziz idi...Səsə tərəf qaçmaq istədi, ayaq açıb yerimək istədi, quş olub uçmaq istədi xarıbülbül...

Gözlədi...Gözlədi...Getdikcə daha aydın eşidilirdi səslər. Doğma elə, obaya, doğma səsə, nəfəsə otuz il həsrət çəkmiş xarıbülbülün otuz saniyə gözləməyə səbri çatmırdı. Görmək istəyirdi onu xilas etməyə gələnləri, görmək istəyirdi alnındakı ləkəni təmizləməyə gələnləri, mənfur düşmənin başını əzənləri, ölümü gözə alanları, qayəsi "Vətən" olanları, qeyrətli oğulları görmək istəyirdi. Budur, get- gedə yaxınlaşırdılar...Artıq tanıya bilirdi onları xarıbülbül...

Öndə gələn Anar Əliyev idi, "Biz qalib gələcəyik", – deyib igidlərinə təlimatlar verən... Xudayar idi gələn, "Vətən yaxşıdır", – deyib düşmənin üstünə cəsarətlə gedən... Seymur Cabbarov idi gələn, "Qisasımızı alırıq", – deyib düşmənin canına vəlvələ salan... Cəbrayıl Dövlətzadə idi gələn, düşməni əlləri ilə boğmağa hazır olan... Çox idi gələn igidlər, çox idi Vətənimin qeyrətli oğulları... Amma xarıbülbül artıq heç nə görmürdü, sevincindən nə hiss etdiyini anlaya bilmirdi, qol-qanad açıb uçmaq istəyirdi vətən övladlarına tərəf, hamısını tək-tək qucaqlamaq istəyirdi, bağrına basmaq istəyirdi, otuz il həsrət çəkdiyi övladlarının qoxusunu duymaq istəyirdi xarıbülbül...

Elə həmin an güclü partlayış baş verdi, dünya gözündə qaraldı xarıbülbülün... Ona çatmağa lap az qalırdı ki, igidin biri kökündən kəsilmiş ağac kimi yerə düşdü, xarıbülbülün düz yanına düşdü... Gözünü son dəfə açdı igid, göz-gözə gəldi xarıbülbül ilə, gülümsədi igid, arzusuna çatmışdı, xilas etmişdi illərdir, həsrətini çəkdiyi xarıbülbülü... Dodaqlarından üç kəlmə söz süzüldü igidin "Sən azadsan, xarıbülbül" və əbədi yumdu gözünü igid. Ürəyi dözmədi xarıbülbülün, yavaş- yavaş əyildi igidə tərəf, tikanlı qönçəsiylə öpdü igidin alnından, "Şəhadətin mübarək, igid", – dedi xarıbülbül...

Artıq bir il ötür, Zəfərimizin bir ili, bütövlüyümüzün, tamlığımızın bir ili, kədərimizin qürurumuza qarışdığı bir il... İllərin həsrəti bitib, qovuşub elinə, obasına xarıbülbül. Amma onu xilas etmək üçün canından keçib şəhid olanları, sağlamlığını itirənləri unuda bilmir xarıbülbül. Qüruru, fəxri qədər ürəyindəki kədəri də böyükdür xarıbülbülün...

Şəhid məzarlarına aparılır xarıbülbül, məzar daşından qürurla ona baxan şəhidindən utanır xarıbülbül, şəhid yaxınlarının acısını hiss etdikcə sıxılır, özünü günahkar bilir, boynunu bükür, gizlənmək istəyir ... Sonra "Vətən sağ olsun", – deyən şəhid atasının, "Bütün balalarım Vətənə qurbandır", – deyən şəhid anasının, "Mənim atam qəhrəmandır" deyib göz yaşını silərək gülümsəyən körpələrin səsini eşitdikcə sıxıntısı keçir, qamətini düzəldir, qürurla boylanır ətrafa xarıbülbül.

44 günlük Vətən müharibəsi başlayanda böyüyündən kiçiyinə qədər hər bir Vətən övladı

*Vətən bağı al, əlvandır,*
*Var içində xarıbülbül*, – deyə zümzümə etməyə başladıq, müharibə başlayan kimi ətri gəldi burnumuza xarıbülbülün, çünki Prezidentimizin düzgün siyasətinə, Ordumuzun gücünə, xalqımızın birliyinə hamımız inanırdıq. Bilirdik ki, buradan geri dönüş yoxdur, bilirdik ki, geri dönüş olsa, bir daha əsla qovuşa bilməyəcəyik Qarabağımıza, üzünü görməyəcəyik xarıbülbülün, ruhu şad olmayacaq Xan qızının, ömürboyu həsrət qalacağıq gözəl Şuşamıza... Bu düşüncələr bizi "bir" etdi, bu düşüncələr bizi "tək ürək" etdi, bu düşüncələr bizi otuz il həsrət qaldığımız torpaqlarımıza qovuşdurdu. Zəfər çalındı, həsrət bitdi...

Qarabağın, xarıbülbülün həsrəti bitdi, amma "oğul həsrəti", "yar həsrəti", "ata həsrəti", "dost həsrəti" bürüdü qəlbimizi, Bu həsrətin sonu yoxdur, müddəti yoxdur. Bu həsrət heç bitməyəcək, illər keçəcək, amma şəhidlərimizin acısı qəlbimizi həmişə əzəcək. Bizi bütöv Azərbaycanın vətəndaşları edənləri, həsrətimizə qovuşduranları heç vaxt unutmayacaq, qəlbimizdə onları əbədi yaşadacağıq, unutmayacağıq ki, onlar daim yaşaya bilsinlər...

Və sən, xarıbülbül, "Dəmir yumruq" əməliyyatının ilham mənbəyi, böyük bir xalqın otuz illik həsrəti, Ağabəyim ağanın nisgili, Fətəli xanın çarəsizliyi, sədaqətin, vəfanın adı, qazimin son gümanı, şəhidimin qanı, övladını qurban verən anamın qurumayan göz yaşı, itkin oğlunu axtara-axtara yorulan atamın çarəsizliyi, yar yolu gözləməkdən gözünün kökü saralan bacımın nakam sevdası, ata qayğısına həsrət qalan körpəmin cavabsız sualları, bütöv bir millətin ən çox sevdiyi nadidə çiçək... Sən heç solma, sən həmişə var ol, sən həmişə çiçəklən ki, qəlbimizə bir də heç vaxt həsrətin düşməsin, sən var ol ki, bizim yaddaşımız bizə dönük çıxmasın, unutmayaq səni bizə qovuşduranları, unutmayaq səni bizə qovuşdurmaq üçün çəkilən əziyyətləri... Unutmayaq ki, daim var ola bilək.

Şair olsaydım, xarıbülbül, səni vəsf edən dəyərli şeirlər yazardım, səni nəzmə çəkər, şirin- şirin misralara sığdırardım... Amma mən müəlliməm, xarıbülbül, dilim döndükcə səni şagirdlərimə anladacaq, səni xilas edənləri, Vətəni bütövləşdirənləri onların yaddaşına yazacaq, Vətənimin qeyrətli oğullarını unutdurmayacaq, əziz xatirələrini daim ehtiram və qürurla yad edəcəyəm. Bu da mənim sənə sözüm olsun, xarıbülbül! Müəllim sözü!..

**Günel BAĞIROVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 938